# Görkəmli oftalmoloq alim, akademik Zərifə Əliyevanın ad günü ilə bağlı tədbir

**Yüksək elmi dəyərlərin və insani keyfiyyətlərin ali vəhdətini özündə cəmləşdirən şəxsiyyətdən biri də dünya şöhrətli alim-oftalmoloq, akademik Zərifə Əziz qızı Əliyeva olmuşdur.**

Aprelin 28-də Bakının Yasamal Rayonu İcra Hakimiyyətində görkəmli oftalmoloq alim, akademik Zərifə Əliyevanın anadan olmasının 93-cü ildönümünə həsr olunmuş tədbir keçirildi. Rayonun Heydər Əliyev muzeyində keçirilən mərasimdə ilk öncə Zərifə xanım Əliyevanın parlaq xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Daha sonra rayon icra hakimiyyəti başçısının müavini Təravət Muradova akademik Zərifə Əliyevanın anadan olmasının 93-cü ildönümü ilə bağlı məruzəsi dinlənildi. O, vurğuladı ki, bu gün Zərifə xanım Əliyevanın doğum günüdür. Onun unudulmaz xatirəsi ölkəmizin səhiyyə və tibb



işçiləri tərəfindən səmimiyyətlə, hörmət və ehtiramla yad edilir. Təqdirəlayiq haldır ki, akademik Zərifə Əliyevanın adını daşıyan və möhtəşəm elm, tədris, müalicə-diaqnostika, reabilitasiya mərkəzi kimi tanınan Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Milli Oftalmologiya Mərkəzi öz xeyirxah qapılarını xəstələrin, həkimlərin, tədris və elmi tədqiqat işçilərinin üzünə geniş açaraq, regionlarda xeyriyyə müalicə-profilaktika tədbirləri keçirilməsi ənənəsini yaşadan nümunəvi tibb müəssisəsinə çevrilib.

Zərifə Əliyeva qayğıkeş, mehriban ana, vəfalı, sədaqətli, saf insan idi. O, ömrünü tibb elminin inkişafına həsr etsə də, ailəsinin mənəvi durumu, övladlarının tərbiyəsi həmişə birinci yerdə dayanırdı. Zərifə xanım ömür-gün yoldaşı, ulu öndər, dahi şəxsiyyət Heydər Əliyevlə birgə hamıya örnək oldu.

Dünya siyasətçiləri sırasında ön cərgədə dayanan, müasir Azərbaycanın memarı, ürəklərdə işıq heykəlinə çevrilən Heydər Əliyevlə ömrünün sonuna qədər çiyin-çiyinə çalışan, ulu öndərə dayaq duran Zərifə xanım Əliyeva həm də dünyaya İlham Əliyev kimi dünya şöhrətli siyasətçi, Azərbaycana isə böyük sərkərdə, Ali Baş Komandan, torpağının, millətinin, vətəninin ləyaqətini qorumaq qüdrətinə malik olan bir Prezident bəxş edib.

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 93-cü ildönümünə həsr olunmuş mərasimdə göz həkimi, 2 saylı Bakı Baza Tibb Kollecinin müəllimi Aynur Səfixanova, YAP rayon Təşkilatı Qadınlar Şurasının sədri Tamella Şahbazova, 13 saylı məktəbin direktoru Yaqut Sadıqova və 5 saylı uşaq poliklinikasının baş həkimi Ədilya Hüseynova çıxış etdilər.

Sonda görkəmli alim Zərifə Əliyevanın mənalı ömür yoluna həsr olunmuş videoçarx nümayiş etdirildi.

**Qədir ASLAN,**
**"Respublika".**